BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№4 Humanitar elmlər seriyası 2010

# TARİX

# ŞİMALİ QAFQAZIN RUSİYA TƏRƏFİNDƏN İŞĞALININ BAŞLANMASI HAQQINDA

**Q.Ə.ƏLİYEV**
*Bakı Dövlət Universiteti*
*Qabil-Aliyev@mail.ru*

*Qafqazın şimal hissəsinin Rusiya tərəfindən işğalı rus və sovet tarixşünaslığında ciddi şəkildə təhrif edilmiş, zorakı birləşdirilmə könüllü birləşmə kimi qələmə verilmiş, həm də bu prosesin guya XVI əsrin ortalarında başlandığı göstərilmişdir. Əslində isə Şimali Qafqazın düzənlik hissəsinin işğalı üçün XVIII əsrin 30-cu illərinin sonunda real addımlar atılmış, 30-40 il sonra isə Şimali Osetiya və Kabardanın birləşdirilməsinə başlanmışdı.*

**Açar sözlər:** Rusiya, Şimali Qafqaz, işğal, könüllü birləşmə, tarixşünaslıq, elçilik, Osmanlı dövləti, Qafqaz xətti, Terek kazakları, Qızlyar, Mozdok.

Şimali Qafqazın Rusiya imperiyasına birləşdirilməsi prosesi rus və sovet tarixşünaslığında qəsdən təhrif olunmuş və hələ də obyektiv araşdırılmasını gözləyən mühüm problemlərdən biridir. Mərkəzin diqtəsi ilə XX əsrin 50-ci illərində yazılmış əsərlərdə Şimali Qafqaz bölgələrinin: Adığey, Qaraçay, Çərkəz, Kabarda, Balkar, Şimalli Osetiya, Çeçenistan və İnquş torpaqlarının işğalı Rusiyaya könüllü daxilolma təqdim edilmiş, həm də bu prosesin guya XVI əsrin ortalarında başlandığı göstərilmişdir (7; 14; 19; 23; 24; 33; 39;). Hətta 1957-ci ildə Kabardanın Rusiyaya daxil olmasının 400 illiyi təntənə ilə bayram edilmiş, bunun şərəfinə Nalçikin mərkəzi meydanında abidə ucaldılmışdır. Həmin dövrdə çərkəz torpaqlarının rus dövlətinə könüllü birləşdirilməsinə (?!) həsr olunmuş əsərdə bu prosesin başlanğıc tarixi kimi çərkəz knyazlarının 1552, 1555 və 1557-ci illərdə Moskvaya eiçiliklər göndərmələri götürülmüşdür (7, 14-15).

XX əsrin 60-70-ci illərində Şimali Qafqazın muxtar qurumlarının tarixinə dair yazılmış ümumi xarakterli əsərlərdə bu iddialardan tədricən imtina edilmişdir (18; 22; 26; 27). Y.N.Kuşevanın əsərində XVI əsrin ortalarında rus dövlətinin Kazan və Həştərxan xanlıqlarını işğal etməsindən sonra, onunla Şimali Qafqaz xalqları arasında yalnız ilkin əlaqələrin qurulduğu bildirilmişdir (25, 3). Müəllifin qənaətinə görə, bəhs edilən dövrdə kabardin və çərkəz knyazlarının Moskvaya eiçiliklər göndərmələri və rus təbəəliyini qəbul etmələri ciddi nəticələri olmayan addımlar idi. Çünki XVI əsrin ortalarında nə rus dövlətinin Şimali Qafqaz istiqamətində irəliləmək imkanı var idi, nə də dağlı tayfalar regionda mövqeyini gücləndirən Osmanlı dövlətinin real təsirindən yayına bilərdilər. Ona görə də, nəinki XVI-XVII yüzilliklərdə, hətta XVIII

əsrin ortalarına qədərki dövrdə də Rusiya hakim dairələri Şimali Qafqazda real təsirə malik deyildi.

Yalnız XVIII əsrin ikinci yarısında Rusiyanın Osmanlı dövlətinə qarşı apardığı qalibiyyətli müharibələrdən sonra Şimali Qafqazın bəzi xalqlarının, o cümlədən osetinlərin və kabardalıların rus tabeliyinə keçmələri, 1829-cu ildə Ədirnə sülhünün şərtlərinə əsasən Şimal-qərbi Qafqazın Qara dəniz sahili boyu bölgələrinin, 1864-cü ildə Qafqaz müharibəsinin başa çatması ilə bütövlükdə Şimali Qafqazın Rusiya imperiyasına qəti səkildə birləşdirilməsi mümkün olmuşdu (26, 300; 20, 112; 27, 78).

Əslən Şimali Qafqazdan olan müəlliflər XX əsrin 60-80-ci illərində yazdıqları əsərlərdə yerli xalqların Rusiya tabeliyinə keçmələrində könüllü birləşmə amilinin olmasını qeyd etsələr də, bu prosesin daha çox zorakılıqla müşayiət olunduğunu əsaslandırmağa çalışmışlar. Həm də yerli xalqların çarizmin işğalçılıq siyasətinə qarşı direnişi, müstəmləkə əsarətinə qarşı qətiyyətlə mübarizə aparmaları məsələlərinə daha çox yer vermişlər. (9; 10; 12; 16; 36).

Lakin 80-ci illərin sonunda Şimali Qafqaz xalqlarının tarixinə dair Moskvada nəşr olunmuş ümumi xarakterli əsərdə regionun Rusiyaya birləşdirilməsinin başlanğıcı kimi yenidən XVI əsrin ortaları götürülmüş, həm də dağlı xalqların Rusiya tabeliyini başlıca olaraq könüllü qəbul etmələri xüsusi vurğulanmışdır (21, 333).

Müasir dövrdə Rusiyanın Şimali Qafqazı işğal etməsi və regionda kobud müstəmləkə idarə sistemi yaratmasına qarşı yerli xalqların Dünya tarixində ən uzunmüddətli milli-azadlıq mübarizəsi aparmaları məsələlərinə daha çox diqqət yetirilməyə başlanmışdır. Şeyx Mənsurun, imam Şamilin başçılığı ilə üsyançı qüvvələrinin nizami rus ordularına qarşı qeyri-bərabər döyüşlərdə misilsiz igidlik göstərmələri fonunda "könüllü birləşmə" haqqında iddiaların nə qədər əsassız olması əyani şəkildə sübut edilmişdir (8; 11; 31; 32).

Şimali Qafqazın Rusiyaya birləşdirilməsinin başlanğıcı kimi Terek və Kuban çayları boyunda XVII əsrin sonunda kazak məskənlərinin yaradılmasını qeyd etmək də doğru deyildir. Çünki birincisi, kazaklar yekcins etnik kütlə olmamışlar və onların rus dilində danışmaları, o zamankı kazaklarla rusların eyni xalqın nümayəndələri olduqlarını təsdiq etmək üçün yetərli deyildir. Müqayisə üçün: ingilis dilini doğma dil saydıqları üçün ingilis fermeri ilə Nyü-Yorkun Harlem məhəlləsindəki zəncini etnik cəhətdən qohum hesab etmirlər. İkincisi, hətta Don kazakları da 1918-1920-ci illər Vətəndaş müharibəsi dövründə Mərkəzi Rusiyadan Qırmızı ordu hissələrində qulluq edənləri "vankalar" adlandırır, özlərindən fərqli sayırdılar (30, 74).

Görkəmli tədqiqatçı L.N.Qumilyov da dəfələrlə Terek kazaklarının xristianlığı qəbul etmiş xəzərlərdən və qıpçaqlardan törədiklərini qeyd etmişdir. Rus sovet alimləri R.Q.Skrınnikov və A.A.Qordeyev də kazakların Qızıl Ordu dövlətində sərhəd xidmətinə aparılan rus gənclərinin tatar və qıpçaqlarla qaynayıb qarışmasından yarandıqlarını bildirmişlər. Onların fikrincə, kazak mühitində rus elementləri yalnız XVII əsrin ortalarından sonra, Mərkəzi Rusiyada təhkimçilik zülmünün güclənməsindən sonra çoxalmağa başlamışdı (17, 126).

Qeyd etmək lazımdır ki, rus dövlətinin Terek kazaklarından istifadə edərək Şimali Qafqazda möhkəmlənmək cəhdləri XVII əsrin əvvəlində Osmanlı dövləti, 1653-cü ildə isə Səfəvi dövləti tərəfindən qətiyyətlə alınmışdı (1, 404-405; 3, 15; 21, 329).

XVIII əsrin ilk onilliklərində Rusiyanın Qafqazın Xəzəryanı bölgələrində möhkəmlənmək cəhdləri də nəticəsiz qalmışdı. I Pyotrun Xəzəryanı bölgələrə yürüşündən

sonra işğal edilmiş ərazilər varislərinin hakimiyyəti dövründə tərk edilmişdi. 1735-ci ildə imzalanmış Gəncə müqaviləsinin şərtlərinə görə, rus dövləti Bakı və Dərbənddən çəkilmiş, Dağıstan üzərindəki iddialarından imtina etmişdi (34, 203-207).

Rusiya XVIII əsrin 30-cu illərində əsas diqqətini Şimali Qafqazın məhsuldar düzənlik bölgələrini işğal etməyə yönəltmişdi. Çarizmin bu regiondakı işğalçılıq siyasətinə Osmanlı dövləti mane olmağa çalışırdı. 1739-cu il sentyabrın 18-də Rusiya ilə Osmanlı imperiyaları arasında bağlanmış Belqrad sülhünə görə, rus dövləti Kabardaya olan iddialarından vaz keçmişdi (28, 901). Osmanlı tərəfi bununla Rusiyanın Şimali Qafqazın qərb və mərkəz hissələrinə doğru irəliləmək cəhdlərinin qarşısını bir müddət ala bilmişdi. Eyni zamanda, Rusiya işğalı təhlükəsi bu bölgələrin yerli əhalisi içərisində Osmanlı dövlətinin vassalı olan Krım xanlığına meyli gücləndirmişdi. XVIII əsrin 40-50-ci illərində adıq tayfalarının Krım xanından asılılığı qəti şəklə düşmüş (6, 199) dağlı tayfalar və xalqlar içərisində İslamın yayılması geniş miqyas almışdı.

XVIII əsrin 40-cı illərində Nadir şahın Dağıstanı itaət altına almaq uçun qətiyyətli addımları Rusiyanın Şimali Qafqazın şərq bölgələrinə doğru irəliləmək cəhdlərinin qarşısını almışdı. Onun böyük ordu ilə Dağıstana yürüşləri rus dövlətinin 1736-cı ildə Terek çayı sahilində inşa etdirdiyi Qızlyarda və digər məntəqələrdə böyük vahimə doğurmuşdu (4, 340).

Osmanlı və Əfşarlar dövlətlərinin Şimali Qafqazda öz mövqelərini möhkəmlətmək üçün atdıqları addımlar bəhs edilən dövrdə Rusiyanın Böyük Qafqaz dağlarına doğru irəliləməsinin qarşısını alsa da, yerli xalqların həyatını da hiss ediləcək dərəcədə ağırlaşdırmışdı. Məsələn, mənbələr XVIII əsrin 40-cı illərində Qsmanlı dövlətinin adıq tayfalarından toplanan xəracın miqdarını artırdığını qeyd etmişlər. Nadir şahın da Dağıstanda feodal hakimləri itaət altına almaq üçün həyata keçirdiyi sərt tədbirlər, dağlı aullarının dağıdılması, yandırılması, yerli əhalinin öz yurdlarından sürgün edilməsi bölgədə vəziyyəti ağırlaşdırmış, narazılığı gücləndirmişdi (31, 108).

Belə bir şəraitdə Şimali Qafqazın ayrı-ayrı feodal hakimləri yardım üçün Rusiyaya müraciət etməyə başlamışdılar. Onlar rus dövlətindən hərbi qüvvə ilə kömək göstərməsini xahiş edir, əvəzində iqtisadi və ticarət əlaqələrini genişləndirməyi, hətta Rusiya himayəsinə keçməyi vəd edirdilər. XVIII əsrin 40-cı illərinin başlanğıcında Dağıstandan da bir neçə nümayəndəlik bir-birinin ardınca Peterburqda olmuşdular. 1742-ci ildə isə Kabarda knyazları adından Məmməd Sadıqovun başçılıq etdiyi nümayəndə heyəti çariça Yelizaveta Petrovnadan xahiş etmişdi ki, onları Krım xanlarının basqınlarından müdafiə etsin. 1743-cü ildə çeçen kənd cəmiyyətlərindən də bir neçəsi Rusiya himayəsinə keçmək üçün müraciət etmişdi (21, 435).

Rusiyada hakimiyyət dairələri bu nümayəndəlikləri məmnuniyyətlə qəbul edib müxtəlif yardımlar və himayəçilik vəd etsələr də, beynəlxalq münasibətləri gərginləşdirməkdən, xüsusən də Osmanlı dövləti ilə yeni toqquşmalardan çəkindikləri üçün ciddi addımlar atmağa cəsarət etmirdilər. Bununla belə, Rusiya yardımına ümid edən bir çox dağlı xalqları Osmanlı dövlətinin, Krım xanlığının vaxtaşırı xərac ödəmək tələblərindən imtina edir, özlərini Rusiya təbəəsi kimi qələmə verirdilər. Məsələn, 1743-cü ildə Kuban boyundan Osmanlı hərbi dəstəsi Kabarda kəndlərinə daxil olub xərac verməyi tələb etdikdə, yerli əhali bu bəhanə ilə Osmanlı vergi yığanlarını bölgədən uzaqlaşdırmağa nail olmuşdular. Kabardalıların bu təcrübəsindən abazinlər və noqaylar da istifadə etmişdilər. Krım xanının vergiyığanları onların yaşayış

məntəqələrinə yaxınlaşdıqda, bu bölgələrin yerli əhalisi artıq Krım xanına tabe olmadıqlarını bildirmişdilər (23, 129).

1747-ci ildə isə abazekeylər, bjeduxlar, şapsuqlar və ubıxlar Krım xanlığının tabeliyindən çıxdıqlarını və qonşu dağlı xalqlarla birlikdə müqavimət göstərməyə hazır olduqlarını bildirmişdilər. 1748-ci ildə Rusiya hökuməti osetin və inquşların rus dövlətinin nəzarətində olan bölgələrə köçüb yerləşmələrinə icazə vermişdi (32, 79). 1748-ci ildə isə Həştərxan qubernatoru razılıq vermişdi ki, çeçenlər onun tabeliyində olan torpaqlarda yaşasınlar. Bu illərdə Rusiya Xarici işlər kollegiyasının qərarı ilə 30-dan çox çeçen uzdeninə illik məvacib verilməsinə başlanmışdı. Rus diplomatiyası belə şirnikləndirici vasitələrlə özünə Şimali Qafqaz əhalisi içərisində rəğbət yaratmağa çalışırdı.

1749-cu ildə Z.Əlixanovun başçılığı ilə nüfuzlu şəxslərdən ibarət osetin elçiliyi Peterburqa gedərək Osetiyanın Rusiya himayəsinə keçməsi məsələsini həll etmək üçün uzun müddət mürəkkəb danışıqlar aparmalı olmuşdu. Osetin nümayəndələri Rusiya himayəsinə qəbul ediləcəkləri təqdirdə 30 minlik hərbi qüvvə ilə Osmanlı sultanına qarşı müharibədə iştirak etməyi vəd etmişdilər. 1752-ci ildə başa çatan danışıqlarda belə bir razılığa gəlinmişdi ki, Şimali Qafqazın mərkəz hissəsində Ardon və Fiaqdon çayları boyu dağətəyi düzənlik bölgə "azad zona" elan edilsin və bu yerlərə osetinlər köçüb məskunlaşsınlar (12, 37). Həmçinin osetinlərə icazə verildi ki, sərbəst şəkildə Qızlyar və Həştərxana gedib gömrük rüsumu ödəmədən ticarətlə məşğul olsunlar. Osetin nümayəndələri də bundan sonrakı dövrdə Rusiyanın tərəfini tutmağı vəd etmiş və öhdələrinə götürmüşdülər ki, osetin xalqı içərisində xristianlığın yayılmasına çalışacaqlar.

Şimali Qafqazın feodal hakimləri içərisində Osmanlı dövləti ilə iqtisadi-ticarət əlaqələrini inkişaf etdirməkdə maraqlı olan feodal hakimləri də mühüm yer tuturdu. Şimal-qərbi Qafqazda Osmanlı dövlətinə rəğbət xüsusilə güclü idi. Həm də daxili çəkişmələrin tez-tez baş verdiyi bu regionda feodal hakimlərdən biri Rusiyaya yardım üçün müraciət etdikdə, rəqibi də dərhal Osmanlı sultanından hərbi qüvvə ilə kömək göstərməsini xahiş edirdi. Məsələn, XVIII əsrin 50-ci illərində Kabardada Kaşkatay və Baksan feodal qrupları arasında hakimiyyət uğrunda mübarizə başladıqda Kaşkatay qrupu Rusiyadan, qarşı tərəf isə Osmanlı dövlətindən yardım istəmişdi (35, 185). O dövrdə Rusiyanın dövlət kansleri vəzifəsini tutan İ.P.Bestujev-Ryumin Kaşkatay qrupu rəhbərlərinə məsləhət görmüşdü ki, Baksan feodal hakimləri ilə apardıqları mübarizəni sülh yolu ilə nizama salsınlar. Çünki Kabardadakı feodal qrupları daxilindəki çəkişmələr Rusiya və Osmanlı dövlətləri arasında münasibətlərin növbəti dəfə kəskinləşməsinə səbəb olurdu.

Maraqlıdır ki, Osmanlı dövlətindən və Krım xanlığından yardım istəyənlərin içərisində XVII əsrin sonunda dini ixtilafa görə Don kazaklarından ayrılıb Kuma çayı boyunda məskunlaşan kazaklar da var idi. Sonrakı dövrdə Kuban kazakları adlanan bu əhalinin nümayəndələri Baxçasaraya gedərək onların qumuqların basqınlarından müdafiə olunmasını xahiş etmişdilər. Krım xanı da kazakların Kuban və Saba çayları arasında məskunlaşmalarına icazə vermiş və onları öz himayəsinə götürmüşdü (13, 33-34).

Rusiya XVIII əsrin 60-cı illərində Şimali Qafqazda yenidən fəallaşmışdı. II Yekaterinanın göstərişi ilə Şimali Qafqazın düzənlik hissəsində və Terek çayı boyunda möhkəmlənmək üçün ciddi addımlar atılmışdı. 1763-cü ildə Mozdok qalası

inşa edildi və osetinlərin buraya köçürülməsi həyata keçirilmişdi. Həmçinin Qızlyardan Azov dənizi sahillərinə kimi qala və istehkamlardan ibarət Qafqaz xəttinin yaradılmasına başlanmışdı. Xəttin üzərində Yekaterinodar, Stavropolsk, Georgiyevsk qalaları, Terek və Kuban çayları boyunca müdafiə istehkamları inşa edimişdi. Eyni zamanda, osetinlərdən və xristianlığı qəbul edən digər dağlılardan ibarət hərbi mühafizə dəstələri təşkilinə girişilmişdi (4, 350).

Rusiyanın Şimali Qafqazda hərbi-siyasi fəallığının artması Osmanlı dövləti ilə münasibətlərin kəskin şəkildə pisləşməsinə səbəb olmuşdu. 1768-ci ildə Osmanlı dövləti Fransanın təzyiqi ilə Rusiyaya müharibə elan etmiş, sultan III Mustafa "dünya müsəlmanlarının xəlifəsi" kimi öz elçilərini Qafqazın müxtəlif bölgələrinə, o cümlədən Dağıstanın və Kabardanın feodal hakimlərinin yanına göndərərək bütün qüvvələri ilə xristian Rusiyasına qarşı çıxmağa, müsəlmanların "müqəddəs müharibə"sində yaxından iştirak etməyə çağırmışdı (29, 94).

Osmanlı tərəfi Qafqaz xalqlarından alacağı hərbi yardımla Qızlyar və Terek istiqamətində hücuma başlamaq, Həştərxana qədər irəliləmək ümidində idi. Bu haqda Xarici işlər kollegiyasına Dərbənd və Tarkudan keçərək Həştərxana gələn "Ararat ermənisi Sukias Ayvazyan" məlumat vermişdi (5, 497).

Lakin 1768-1774-cü illər müharibəsi dövründə Azərbaycan xanları və Dağıstanın feodal hakimlərinin əksəriyyəti ehtiyatlı hərəkət etmiş, bitərəf mövqe tutmuşdular. Yerli müsəlman əhali, xüsusən də sünni məzhəbindən olan din xadimləri Osmanlı dövlətinə rəğbət bəsləsələr də, feodal hakimlər siyasi və iqtisadi mənafelərini önə çəkərək, kənar təsirin azaldığı bu illərdə öz daxili işlərini sahmana salmağa daha çox vaxt ayırmağa üstünlük vermişdilər (1, 535).

Rusiyanın bu müharibədə qalib gəlməsi Şimali Qafqazda mövqeyini möhkəmlətməyə imkan verdi. Kiçik Qaynarca sülhünün şərtlərinə görə, Azov sahilləri, Kerç, Yeniqala Rusiyaya keçdi. Müqavilənin 21-ci maddəsinə görə, Kabardanın taleyi Krım xanın ixtiyarına verilirdi. Krım xanı isə hələ 1772-ci ildə Böyük və Kiçik Kabarda əhalisini Rusiya təbəəsi hesab etdiyini bildirmişdi. Bununla Kabardanın Rusiyaya birləşdirilməsi rəsmən başa çatdı. Taman yarımadası, Çərkəz torpaqları və Kuban çayının sol sahili boyu ərazilər isə Osmanlı dövlətinin tabeliyində qaldı (29, 104).

1774-cü ilin payızında isə Şimali Osetiyanın Rusiyayaya birləşdirilməsinə başlandı. Rus hökuməti və osetin nümayəndələri arasında Mozdokda aparılan danışıqlar nəticəsində bu region Rusiya tabeliyinə keçdi. Razılaşmaya görə, osetinlər Şimali Qafqazın mərkəz hissəsinin dağətəyi və düzənlik bölgələrində məskunlaşmalı idilər. Rusiya tərəfi isə onları qonşu dağlı xalqların basqınlarından qorumaq üçün bu bölgədə qala və istehkamlar inşa etməli idi.

Göründyü kimi, Şimali Qafqazın dağlıq bölgələrinin Rusiya imperiyasına birləşdirilməsi uzun müddət davam etmiş mürəkkəb proses olmuş, XVIII əsrin 60-70-ci illərində yenicə başlamışdı. Ona görə də, bu ziddiyyətli problemin araşdırılması zamanı ayrı-ayrı epizodik məqamları şişirdib təqdim etmək bilərəkdən tarixi saxtalaşdırmaq cəhdləridir və bunun qarşısını almaq, regionun işğalı tarixini obyekiv araşdırmaq zəruridir.

## ƏDƏBİYYAT


***Azərbaycan dilində***

1. Azərbaycan tarixi. Uzaq keçmişdən 1870-ci illərə qədər. Bakı: Azərbaycan, 1996, 872 s.
2. Bakıxanov A. Gülüstani-İrəm. Bakı: Azərb.SSR EA,1951, 255 s.
3. Əliyev Q.Ə. Qafqaz XVII əsrin ortaları və ikinci yarısında. // Tarix və onun problemləri, 2005, №3, s.12-18
4. Əliyev Q.Ə. Qafqaz tarixi (Ən qədim çağlardan XVIII əsrin sonunadək). Bakı: Elm, 2009, 448 s.

***Rus dilində***

5. Абдуллаев Г.Б. Азербайджан в XVIII веке и взаимоотношения его с Россией. Баку: АН Азерб. ССР, 1965, 621 с.
6. Адыги, балкарцы и карачаевцы в известиях европейских авторов XII-XIX вв. Нальчик: Эльбрус, 1974, 634 с.
7. Алексеева Е.П., Калмыков И.Ч., Невская В.П. Добровольное присоединение Черкесии к России. Черкесск: Карачаево-Черкес. кн. изд-во, 1957, 92 с.
8. Ахмедов Ш. Б. Народно-освободительное движение горцев Северного Кавказа под предводительством Мансура в 1785-1791 гг. Ростов: Ростов. Ун-т, 1992, 48 с.
9. Азаматов К.Г. Социально-экономическое положение и обычное право балкарцев в первой половине XIX века. Нальчик: Кабарда-Балкар. книжн. изд-во, 1968, 108 с.
10. Блиев М.М. К вопросу о времени присоединения народов Северного Кавказа к России. // «Вопросы истории», 1970, №7, с.43-56
11. Блиев М.М. Россия и горцы Большого Кавказа. На пути к цивилизации. М.: Мысль, 2004, 877 с.
12. Блиев М.М. Русско-осетинские отношения (40-е годы XVIII – 30-е годы XIX в.). Орджоникидзе: Ир, 1967, 379 с.
13. Брайан М. К истории первого кубанского казачьего войска: поиски убежища на Северном Кавказе. // Восток, 2001, №4, с. 30-38
14. Бушуев С.К. Из истории русско-кабардинских отношений. Нальчик: Кабарда-Балкар. книжн. изд-во,1956, 146 с.
15. Взаимоотношения народов Чечено-Ингушетии с Россией и народами Кавказа в XVI-начале XX вв. Сб. документов. Грозный: Чечено-Ингуш. кн. изд-во, 1981, 342 с.
16. Волкова Н.Г.Этнический состав населения Северного Кавказа в XVIII – начале XX века. М.: Наука, 1974, 275 с.
17. Гордеев А.А. История казаков. М.: Наука, 1992, 349 с.
18. История Дагестана. М.: Главная редакция восточной литературы. т.1,1967, 432 с.
19. История Кабарды с древнейших времен до наших дней. М.: АН СССР, 1957, 394 с.
20. История Кабардино-Балкарской АССР, т.I, М.: Наука, 1967, 482 с.
21. История народов Северного Кавказа с древнейших времен до конца XVIII в. М.: Наука, 1988, 544 с.
22. История Северо-Осетинской АССР с древнейших времен до наших дней. Орджоникидзе: Северо-Осетинской книжн. изд-во, 1968, 251 с.
23. Кабардино-русские отношения. Сб. документов, В 2-х т. Т.II, М.: АН СССР, 1957, 478 с.
24. Кумыков Т.Х. Присоединение Кабарды к России и его прогрессивные последствия. Нальчик: Кабарда-Балкар. книжн. изд-во, 1957, 163 с.
25. Кушева Е.Н. Народы Северного Кавказа и их связи с Россией. Вторая пол. XVI – 30-е годы XVII в. М.: АН СССР, 1963, 371 с.
26. Очерки истории Карачаево-Черкесии, В 2-х т. Т.I, Черкесск: Ставроп. книжн. изд-во, 1967, 600 с.

27. Очерки истории Чечено-Ингушской АССР, В 2-х т. Т.I, Грозный: Чечено-Ингуш. книжн. изд-во,1967, 468 с.
28. Полное собрание законов Российской империи. Собр. I, т. 10-й, СПб., 1830, 1265 с.
29. Смирнов Н.А. Политика России на Кавказе в XVI-XIX вв. М.: Соцэкгиз, 1956, 244 с.
30. Сопов А.В. Проблема этнического происхождения казачества и ее современное прочтение. // Вестник Московского университета, 2008, №4, с. 66-85
31. Сотавов Н.А. Северный Кавказ в русско-иранских и русско-турецких отношениях в XVIII веке. М.: Наука, 1991, 224 с.
32. Сотавов Н.А. Кавказская проблема в русско-иранских, русско-турецких и ирано-турецких отношениях в XVIII в. (Зарубежная историография) // Научная мысль Кавказа, 1998, №2, с.77-85
33. Тотоев М.С. Из истории дружбы осетинского народа с великим русским народом. Орджоникидзе: Северо-Осетинское кн. изд-во,1954, 104 с.
34. Юзефович Т.Д. Договоры России с Востоком, политические и торговые. СПб.:1869, 568 с.
35. Якубова И.И. Кабарда в русско-турецких отношениях середины XVIII века // Вопросы истории, 1987, №9, с. 184-189
36. Якубова И.И. Политика России на Центральном Кавказе накануне и в период русско-турецкой войны 1768-1774 гг. М.: Наука,1982, 165 с.

## О НАЧАЛЕ ЗАВОЕВАНИИ РОССИЕЙ СЕВЕРНОГО КАВКАЗА

**Г.А.АЛИЕВ**

### РЕЗЮМЕ

В русской и советской историографии одна из сильно искаженных проблем являлось завоевание Россией Северного Кавказа. Завоевание приподносилось как добровольное вхождение, и в то же время отмечалось, что якобы этот процесс начался в середине XVI в. На самом деле Россия начала захватывать равнинную часть Северного Кавказа в конце 30-х годов XVIII в., а через 30-40 лет началось присоединение Северной Осетии и Кабарды.

## ON THE START OF THE OCCUPATION OF NORTHERN CAUCASUS BY RUSSIA

**G.A.ALIYEV**

### SUMMARY

One the most strongly deformed problems in Russian and Soviet historiography was the problem of occupation of Northern Caucasus by Russia. The invasion was presented as voluntary unification and it was noted as if Russia commenced to invade the flatness of Northern Caucasus at the end of the 30s of the XVIII century and 30-40 years later Northern Osetia and Kabarda were unified.